UOT 622:338

# Neftqazçıxarmada resurs-istehsal potensialının iqtisadi mahiyyəti

**Q.Ə. Səfərov**, i.e.d.,
**G. Vaqifqızı**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

**e-mail:** sqa.419@mail.ru

**Açar sözlər:** neft, qaz, sənaye, müəssisə, resurs-istehsal, potensial, istehsal amili, iqtisadiyyat.

**Экономическая сущность ресурсно-производственного потенциала в нефтегазодобыче**

Г.А. Сафаров, д.э.н., Г. Вагифкызы
Азербайджанский государственный университет нефти и промышленности

**Ключевые слова:** нефть, газ, промышленность, предприятия, ресурс-производство, потенциал, фактор производства, экономика.

Основной проблемой функционирования нефтегазовой промышленности является обеспечение рациональной разработки месторождений за счет максимального использования факторов производства. В современных условиях использование недр во взаимосвязи "факторы производства – объем производства" обусловливает увеличение научно-практической значимости использования ресурсно-производственного потенциала в нефтегазодобыче.

В экономической литературе для различных отраслей промышленности разработана методика оценки производственного потенциала. Однако этот вопрос не полностью разработан для нефтегазодобывающих предприятий, эксплуатирующих различные типы месторождений.

**Economic essence of resource-production potential in oil-gas production**

G.A. Safarov, Dr. in Ec. Sc., G.Vagifkizi
Azerbaijan State Oil and Industry University

**Keywords:** oil, gas, industry, enterprise, resource-production, potential, production factor, economic.

The major issue of oil-gas industry functioning is the provision of rational exploration of fields due to the maximum use of production factors. In modern conditions, the utilization of underground resources in connection of "production factors – production capacity" contributes to the increase of scientific-practical significance of using resource-production potential in oil-gas extraction.

A methodology for production potential estimation has been developed in economic references for various industrial fields. However, this issue has not been completely developed for oil-gas producing enterprises operating different field types.

Azərbaycan müstəqillik əldə etdikdən sonra ictimai-siyasi, tarixi və iqtisadi həyatında mühüm rol oynayan neft-qaz sənayesi ölkənin aparıcı sahəsinə çevrildi. Bu sənaye sahəsi uzun bir tsikli əhatə etməklə özündə aşağıdakı istehsal zəncirini ehtiva edir: axtarış-kəşfiyyat işləri, quyuların qazılması, neft və qazın hasilatı, nəqli, saxlanılması, emalı və satışı.

Məlumdur ki, neft-qaz sənayesi bütövlükdə dövlətin nəzarətindədir və bu sahədə əldə olunan nəticələr qanunlara uyğun tənzimlənir. Neft-qaz sənayesinin rasional fəaliyyəti, alınan nəticələrin maksimallaşdırılması, ölkəyə vergi ödənilməsinin yaxşılaşdırılmasında dövlət maraqlıdır. Bununla belə neft-qaz sənayesinin əsas məqsədi mövcud resurslardan, istehsal potensialından daha səmərəli istifadə etməklə mənfəəti artırmaqdır. Bu mənada neftqazçıxarma müəssisəsinin səmərəli fəaliyyətinə karbohidrogen (KH) ehtiyatlarının çıxarılması prosesində bir sıra amillər təsir edir: təbii (ehtiyatların mövcudluğu, sulaşma, neftin fiziki-kimyəvi xüsusiyyətləri), işin təşkili, insan amili.

Bütün bunlar isə neftqazçıxarmanın xüsusiyyətlərinə nəzər yetirməyi ön plana çəkir. Neft sənayesində əmək cismi, yəni neft və qaza malik lay yerin təkindədir, neft və qazın hasil edilməsi üçün xüsusi quyuların qazılması zəruridir. Həmçinin neftqazçıxarmada əmək cismi və məhsuldarlığın əsas amili olan lay təzyiqi təbiətin bəxş etdiyi nemətdir və bilavasitə insan əməyinin məhsulu deyildir. Lay təzyiqi, neftqazçıxarmada istismar üsulunu (fontan, kompressor, dərinlik nasos), üsullar üzrə məhsulun maya dəyərini, lay təzyiqinin saxlanması üzrə işləri, laylara süni təsir üsullarının planlaşdırılmasını özündə ehtiva edir.

Burada bir neçə məqama da diqqət yetirmək lazımdır. Belə ki, neftqazçıxarmada əmək cismi və quyunun yeraltı avadanlıqlarının uzaqda olması KH ehtiyatlarının mənimsənilməsi üçün xüsusi bir texnoloji prosesin özünəməxsus xüsusiyyətini yaradır. Yəni yuxarıdakıları nəzərə alaraq, burada əmək cisminə bilavasitə deyil, dolayısı ilə quyu vasitəsilə təsir etmək mümkün olur. Digər tərəfdən əmək cisminin ərazicə bağlanması və istehsal obyektinin yerləşmə amili bütövlükdə neftqazçıxarmada müəssisənin yerləşdirilməsi prinsipini müəyyən edir. Həmçinin istənilən neft və qaz yatağının işlənməsi hasilatın artması, sabitləşməsi və düşməsi kimi müxtəlif mərhələləri keçir. Bütün bunlar isə resurs-istehsal potensialı baxımından xüsusi spesifik istehsal prosesləri, istismar üsulları, müəssisənin inkişaf perspektivləri, onun artım və inkişaf mərhələləri, nəticələrin əldə edilməsi, saxlanması və ləğvi proseslərini özündə əks etdirir.

Fikrimizcə, hasilat sənayesini, o cümlədən neftqazçıxarmanı fərqləndirən əsas xüsusiyyətlərdən ən başlıcası burada dağ rentasının mövcud olmasıdır. Dağ rentası yaxşı və orta səviyyəli yataqlarda əmələ gəlir və daha yüksək məhsuldarlığı, məhsulun kiçik maya dəyərini, hasil edilən məhsulda qiymətli komponentlərin olmasını, sənaye ehtiyatının miqyasını, enerji-nəqliyyat dəhlizinə yaxın olmasını və s. təmin edir. Nəticədə əldə edilən əlavə mənfəət dağ rentasını əmələ gətirir ki, bu da yatağın işlənməsi ilə məşğul olanlar, yatağın sahibi (hökumət) tərəfindən mənimsənilməlidir.

Müasir dövrdə neftqazçıxarma müəssisələri neft və qazın dünya qiymətlərinin daim dəyişməsi şəraitində fəaliyyət göstərir. Bu zaman enerji daşıyıcılarına tələbatda bir sıra təbəddülata məruz qalır ki, son nəticədə neftqazçıxarmanın səmərəliyi və bütövlükdə ölkə büdcəsinə daxilolmalarda müəyyən dəyişikliklər olur. Bir barrel neftin qiymətinin dünya bazarında dəyişməsi iqtisadiyyatın inkişaf səviyyəsinə bu və ya digər dərəcədə təsir edir. Belə ki, neftin qiymətinin artması neft-qaz sənayesində yüksək mənfəətin əldə edilməsinə şərait yaradır və təsərrüfat subyektlərində resurs potensialından səmərəli istifadə edilməsinə neqativ təsir edir. Əksinə, neftin qiymətinin azalması istehsalı qeyri-rentabelli edir, bu isə neftqazçıxarma müəssisəsinin fəaliyyətinin davam etdirilməsi və ya etdirilməməsi məsələsini gündəmə gətirir.

Neftqazçıxarma müəssisələrinin fəaliyyətinin təhlili göstərir ki, KH xammalının hasilatında xərclərin kəmiyyəti və quruluşu işlənilən yatağın dağ-geoloji şəraitindən bilavasitə asılıdır. Bu isə neftqazçıxarma müəssisəsinin istehsal imkanlarını şərtləndirir, xammal bazasının həcmi və keyfiyyətini müəyyən edir, son nəticədə neft-qaz yatağının resurs imkanlarını üzə çıxarır. Həmçinin, təsərrüfat subyektinin idarəetmə qərarından yatağın resurs potensialından səmərəli istifadəni xarakterizə edən son neftvermə əmsalının təyin edilməsi asılı olur.

Daha dəqiq, neftqazçıxarma müəssisəsinin istehsal (qərb iqtisadiyyatında investisiya əmtəələri), əmək, maliyyə və s. resursları neft və qaz yataqlarının mövcud resurs potensialından bilavasitə asılıdır.

Bütün bunlar isə neftqazçıxarma müəssisələrinin fəaliyyətində mövcud güclərin təhlili, onun potensial imkanlarının aşkar edilməsini ön plana çəkir.

Qeyd edək ki, bu günə qədər "müəssisənin potensialı" məfhumunun nəzəri müddəaları və təcrübi tərəfləri iqtisadi ədəbiyyatda tam açılmamışdır. Bununla belə, yerli və xarici iqtisadçı alimlərin əsərlərində bu məsələnin tədqiqinə rast gəlirik [1–7].

Azərbaycan Sovet Ensiklopediyasında, sözün geniş mənasında potensial dedikdə, "əldə olan vasitələr, ehtiyatlar, mənbələr hesabına və onların mobilləşməsi, hərəkətə gətirilməsi, müəyyən məqsədə çatmaq üçün istifadə edilməsi, planın yerinə yetirilməsi, hər hansı məsələnin həlli" kimi başa düşülür.

"Potensial" məfhumu keçən əsrin yetmişinci illərində elmi dövriyyəyə daxil edilmiş, getdikcə möhkəmlənmiş və hər hansı sahədə resurslarla son nəticənin əlaqələndirilməsi problemi ilə bağlı olmuşdur. Bu dövrdə potensial termini, əsasən ölkə, region, sənaye və sahənin iqtisadiyyatını xarakterizə edir. Bununla belə, sənaye müəssisələri üçün "iqtisadi potensial", "resurs potensialı", "sənaye müəssisəsinin potensialı" terminlərindən də geniş istifadə olunur. Bu isə o mənaya gəlirdi ki, iqtisadçı alimlər arasında sənaye müəssisəsinin iqtisadi potensialı məf-

humunun məzmununa dair yekdil fikir yoxdur. Belə ki, keçmiş ittifaq dövründən bəri tədqiqatçılar iqtisadi potensialı – resursların məcmusu, digərləri isə – təsərrüfat subyektinin tabeliyində olan resursların mənimsənilməsi qabiliyyəti kimi dəyərləndirirlər.

Tədqiqatlar göstərir ki, son zamanlar "sənaye müəssisəsinin iqtisadi potensialı" kateqoriyasına maraq artmış, keçmiş ittifaqda fəaliyyət göstərən iqtisadçı-alimlərin fikirləri cəmləşdirilmişdir [4–6].

Qeyd edək ki, kompaniyanın iqtisadi potensialı, onun ixtiyarında mövcud olan resurslar və qabiliyyətin səmərəli istifadəsi və geniş təkrar istehsalı ilə şərtlənən, istehsalın və məhsulun səmərəli reallaşdırılmasının təmin edilməsi üçün imkanlar səviyyəsidir [6].

Əsas məsələ budur ki, bütün tədqiqatlarda bir qırmızı xətt keçir. Müəssisənin iqtisadi potensialı istehsal amilləri (torpaq, kapital, əmək, sahibkarlıq, informasiya) ilə qarşılıqlı əlaqədardır və bir-birini şərtləndirir.

Neftqazçıxarma müəssisəsinin iqtisadi potensialı daxili və xarici amillərdən asılıdır. Xarici mühitə elmi-texniki tərəqqi, təsərrüfat-hüquqi və inzibati, bazar konyunkturası və təbii amillər, daxili mühitə isə texniki-texnoloji, təşkilati-idarəetmə, iqtisadi, sosial amillər aiddir.

İqtisadi ədəbiyyatda sənaye müəssisəsinin potensialının quruluşuna dair vahid mövqe yoxdur. Bəzi tədqiqatçılara görə bu quruluş istehsal, maliyyə, bazar, elmi-texniki, ekoloji potensiala, bəzilərinə görə istehsal, innovasiya-investisiya, maliyyə, kadr, ekoloji və təşkilati potensiala, bəzilərinə isə istehsal, əmək, bazar, maliyyə, innovasiya, informasiya, təşkilati potensiala ayrılmaqla verilir. Bununla belə, bəzi tədqiqatçılar tərəfindən bu quruluş: istehsal, maliyyə və bazar potensialı kimi verilmişdir [5]. Fikrimizcə, bu quruluş başqalarından fərqli olaraq, iqtisadi proseslərin məzmununu tam əhatə edir, yəni "istehsal-maliyyə-bazar". Yuxarıda sadaladığımız fikirlərdə isə innovasiya, investisiya, elmi-texniki, informasiya, kadr, əmək, təşkilati, ekoloji potensial bütövlükdə istehsal potensialında əks olunur.

Neftqazçıxarma müəssisəsinin iqtisadi potensialının tərkib elementlərinin quruluşuna nəzər salaq. Müəssisənin istehsal potensialı texniki-texnoloji, innovasiya, təbii-resurs, əmək, təşkilati, informasiya, maliyyə potensialı maliyyə resurslarının cəlb edilməsi, istehsal-təsərrüfat fəaliyyətindən mənfəətin əldə edilməsi, investisiya və ya maliyyə resurslarının investisiya edilməsi, bazar potensialı, istehsal amillərinin əldə edilməsi, işçi qüvvəsinin cəlb edilməsi, məhsulun (işin, xidmətin göstərilməsi) reallaşdırılması elementlərindən ibarətdir.

Qeyd edək ki, iqtisadçı-alimlər arasında "sənaye müəssisəsinin istehsal potensialı" məfhumuna aid vahid mövqe yoxdur.

İstehsal potensialı müəssisənin sərəncamında olan resursların məcmusudur. Belə ki, istehsal potensialı akademik L.İ. Abalkinə görə resursların ümumiləşdirilmiş yığım xarakteristikası, İ.İ. Lukinova görə, bu və ya digər təsərrüfat sisteminin sərəncamında olan resursların kəmiyyət və keyfiyyəti, Y.Y. Donetsə görə vahid vaxt ərzində istehsal oluna bilən məhsul istehsalının maksimal mümkün həcmi kimidir. Bu məsələ ilə bağlı xeyli tədqiqatlar mövcuddur. Fikrimizcə, neftqazçıxarmada istehsal-resurs potensialı dedikdə, neft və qaz ehtiyatlarını tam əhatə etmək və onların istismara cəlb olunması, elmi-texniki tədbirlər, innovasiyalı texnologiyaların tətbiqi, işin düzgün təşkili ilə mövcud personaldan, quyu fondundan səmərəli istifadə etməklə yerin təkinin qorunması və əmək şəraitinin yaxşılaşdırılması, texnoloji prosesin əmək, enerji, metal, fond tutumluluğunun azaldılması, əmək və ekoloji təhlükəsizlik, cari və son neftvermə əmsalının artırılması tədbirlərinin həyata keçirilməsi, neft-qaz mədənlərində avtomatika və telemexanika, blokçeyn texnologiyasının, daha doğrusu, rəqəmsal iqtisadiyyatın tətbiqi ilə neft-qaz yataqlarının səmərəli istifadə olunması imkanlarının məcmusu başa düşülür. Qısa olaraq neftqazçıxarma müəssisəsinin resurs istehsal potensialını xarici mühit, KH ehtiyatları, əsas fondlar, personal, idarəetmə və KH-nin hasilatı kimi göstərmək olar. Buradan aydın olur ki, istehsal amillərinin hamısı bu ardıcıllıqda öz əksini tapmışdır. Belə ki, "torpaq" amili neft və qaz yataqlarının işlənməsində KH ehtiyatlarının çıxarılmasına, "kapital" amili əsas istehsal fondlarına uyğun gəlir. Bununla belə, intellektual işləmələr, "nou-hau"lar, lisenziyalar, yerdən istifadə hüquqlarını da nəzərə alsaq, qeyri-maddi aktivlər də "kapital"a aid edilə bilər. "Əmək" amilində neft-qaz hasilatında fəaliyyət göstərən personal öz əksini tapır. "İnformasiya" və "Sahibkarlıq" amilləri idarəetmədə birləşir. Beləliklə, neftqazçıxarma müəssisəsinin resurs-istehsal potensialı elementlərinə xammal resursları, əsas fondlar, personal, idarəetmə aiddir. Bu potensialdan istifadə nəticəsi KH xammalının hasilat həcmində ifadə olunur.

Bəzi tədqiqatçılar müəssisənin məhsul buraxılışı üzrə imkanlarını, yəni dövriyyə vəsaitlərini (dövriyyə fondları və tədavül fondlarının pul ifadəsində məcmusu) müəyyən etməyi ön plana çəkirlər [5]. Burada dövriyyə fondları xammal, əsas və köməkçi materiallar, komplektləşdirici məmulatlar, bitməmiş məhsul istehsalı və digər əmək cisimlərini, tədavül fondları isə anbardakı hazır, sifarişçiyə göndərilmiş, haqqı ödənmiş məhsullar, kassada hesabda, bankda olan pul vəsaitlərini əhatə edir. Neftqazçıxarma müəssisəsində istehsal fondlarının tərkibində dövriyyə fondlarının xüsusi çəkisi kiçik olsa da resurs-istehsal potensialının tərkibinə daxil edilməlidir.

Yuxarıda qeyd edildiyi kimi, resurs-istehsal potensialı həm xarici, həm də daxili mühit amillərinin təsirinə məruz qalır. Bu mənada təbii amillər neftqazçıxarma müəssisəsi üçün dağ-geoloji rolunda çıxış edir. Belə ki, dağ-geoloji amillər texnoloji proseslərin xüsusiyyətlərini və dağ rentasının alınmasını, həmçinin neft-qaz yatağının həyat tsiklini, xammal hasilatının yüksəldilməsi, onun təbii azalmasını və s. müəyyənləşdirir.

Təsərrüfat-hüquqi və inzibati amillər neftqazçıxarma müəssisəsi üçün yerin təkindən istifadə edənlərə münasibətdə dövlətin siyasəti, yerin təkinin işlənməsinə verilən (və ya alınan) lisenziya, dağ rentasının alınması üzrə vergi siyasətidir.

Neftqazçıxarma müəssisəsi üçün bazar-konyunktur amilləri – istehsal amillərinin, həmçinin neft və qazın dünya və daxili bazarda qiymət səviyyəsidir.

Yekun olaraq qeyd edirik ki, bütün bunlar neftqazçıxarmada resurs-istehsal potensialının iqtisadi mahiyyətinin müəssisənin iqtisadi potensialının müəyyənləşdirilməsində, strateji iqtisadi qərarların qəbul edilməsində istifadə olunmalı və səmərəliyin yüksəldilməsinə yönəldilməlidir.

**Ədəbiyyat siyahısı**

1. *Əliyev T.N., Babayev M.T.* Neftqazçıxarma sənayesi müəssisələrinin iqtisadi potensialı. – Bakı: Azərnəşr, 2003, 269 s.
2. *Винничек Л.Б.* Производственный потенциал: теория вопроса // Региональная экономика: теория и практика, 2011, № 7, с. 35-39.
3. *Глазьев С.Ю.* Научно-производственный потенциал: современное состояние и перспективы развития // Проблемы теории и практики управления, 2008, № 12, с. 8-22.
4. *Гужновский Л.П. Арбузов В.В.* Некоторые вопросы оценки нефтяного потенциала России // Проблемы экономики и управления нефтегазовым комплексом, 2008, № 12, с. 14-18.
5. *Мерзликина Г.С., Шаховская Л.С.* Оценка экономической состоятельности предприятия. – Волгоград: Волг ГТУ, 1998, 265 с.
6. *Пономаренко Т.В. Пономаренк Е.И.* Стратегическое управление компанией на основе анализа и оценки экономического потенциала. – М.: Наука, 2008, 212 с.
7. *Султанова Р.* Эффективность использования производственного потенциала в машиностроительном комплексе Азербайджана. – Баку: Элм, 1995, 165 с.

**References**

1. *Aliev T.N., Babaev M.T.* Neftgazchykharma senayesi muessiselerinin igtisadi potensialy. – Baku, Azerneshr, 2003, 269 p.
2. *Vinnichek L.B.* Proizvodstvenniy potentsial: teoria voprosa // Regional'naya ekonomika: teoria i praktika, 2011, No 7, pp. 35-39.
3. *Glaz'yev S.Yu.* Nauchno-proizvodstvenniy potentsial: sovremennoe sostoyanie i perspektivy razvitia // Problemy teorii i praktiki upravlenia. – M.: 2008, No 12, pp. 8-22.
4. *Guzhnovskiy L.P., Arbuzov V.V.* Nekotorye voprosy otstenki neftanogo potentsiala Rossii // Problemy ekonomiki i upravlenia neftegazovym kompleksom. – M.: 2008, No 12, pp. 14-18.
5. *Merzlikina G.S., Shakhovskaya L.S.* Otsenka ekonomicheskoi sostoyatel'nosti predpriyatia. – Volgograd: Volg. GTU, 1998, 265 p.
6. *Ponomarenko T.V., Ponomarenko E.I.* Strategicheskoe upravlenie kompaniey na osnove analiza i otsenki ekonomicheskogo potentsiala. – M.: Nauka, 2008, 212 p.
7. *Sultanova R.* Effektivnost' ispol'zovania proizvodstvennogo potentsiala v mashinostroitel'nom komplekse Azerbaidzhana. – Baku: Elm, 1995, 165 p.